# YUSİFOV ZAKİR TOFİQ OĞLU



29 sentyabr 1956-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1974-cü ildə 194 saylı orta məktəbi bitirərək, Sasovski adına Mülki Təyyarəçilik məktəbinə daxil olmuşdur. 1977-ci ildə təhsilini başa vuraraq, Yevlax aviadəstəsində fəaliyyətə başlamışdır. AN-2 təyyarəsinin komandiri, eskadriliya komandirinin müavini, eskadriliya komandiri, uçuşun təşkili və təminetmə müfəttişliyinin təyyarəçi-müfəttişi vəzifələrində çalışsa da, 1988-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin qiyabi şöbəsini bitirmişdir. Azərbaycanda ilk hərbi vertolyot eskadriliyası Milli Qəhrəman Yavər Əliyevlə Zakir Yusifovun əməyi nəticəsində yaradılmışdır. Qısa zamanda Qarabağa və digər döyüş bölgələrinə uçuşlar etmiş, ən uğurlu uçuşunu isə Füzuli-Xocavənd istiqamətində yerinə yetirmişdir. Tərtər, Ağdərə, Xocavənd, Şuşakənd, Füzuli döyüşlərində yüzədək uçuş etmişdir. 11 oktyabr 1992-ci ildə növbəti uçuş zamanı Səfiyan kəndində əməliyyat yerinə yetirərkən Zakir Yusifovun vertolyotu vurulmuş və qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Ailəli idi. İki qızı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə mayor Yusifov Zakir Tofiq oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. 1995-ci ildən təhsil aldığı 194 saylı tam orta məktəb və Nizami rayonundakı küçələrdən biri onun adını daşıyır.